# AYLIQ İCMAL

Dekabr



# MÜNDƏRİCAT

**İnsan resursları**

- Vəzifədə yüksəliş 04
- Xidmətdə fərqlənənlər 04

**Əməliyyat fəaliyyəti**

- Ayın fəaliyyəti 08
- Statistika 09

**Ayın xəbərləri**

- Xəbərlər 11

**Mühafizəyə dair**

- Kütləvi tədbirlərin mühafizəsi 14



# İNSAN RESURSLARI

**Dəyər verdiklərinizi qoruyuruq!**

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



**Kamran Tağıyev**

**Kiçik mütəxəssis**

Mühafizəçi vəzifəsindən kiçik mütəxəssis vəzifəsinə keçirilmişdir.

# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR

Əməkdaşlarımız ay ərzində əmək fəaliyyətlərini yüksək peşəkarlıqla icra etdikləri üçün mükafatlandırılıblar.



**Hüseyn Hüseynov**

**Xidmət rəisi**



**Qoşqar Məmmədov**

**Xidmət rəisi**



**Raqif İbayev**

**Xidmət rəisi**



**Əsgər Qarayev**

**Baş mühafizəçi**



**Yaqub Rövşənoğlu**

**Mühafizəçi**



**Amil Fətalıyev**

**Mühafizəçi**



**Osman Osmanov**

**Mühafizəçi**



**Anar Qocyev**

**Mühafizəçi**



**Xankişiyev Seymur**
Mühafizəçi



**Orxan Hətəmxanov**
Mühafizəçi



**Famil Hüseynov**
Mühafizəçi



**Elbrus Abbasov**
Mühafizəçi



**Üzeyir Tağızadə**
Mühafizəçi



**Kamran Baxşəliyev**
Mühafizəçi



**Teymur Abbasov**
Mühafizəçi



**Telman Cəfərov**
Mühafizəçi



**Məhəmmədemin Bəkirov**
Mühafizəçi



**Həmid Əliyev**
Mühafizəçi



**Zahid Əliyev**
Mühafizəçi



**Kamran Məmmədov**
Mühafizəçi



**Zaur Ağabalayev**
Mühafizəçi



**Adil Hacızadə**
Mühafizəçi



**Ariz Cəlilov**
Mühafizəçi



**Bəhrəm Aşurov**
Mühafizəçi



**Ayaz Mustafayev**
Mühafizəçi



**Elsevər Sadıqov**
Mühafizəçi



**Ramil Əhmədov**
Mühafizəçi



**Vasif Dadaşov**
Mühafizəçi



**Mustafa Hüseynov**
Mühafizəçi



**Nurlan Şeydəbəyov**
Mühafizəçi



**Mahir Cabbarov**
Mühafizəçi

# ƏMƏLİYYAT FƏALİYYƏTİ






2023-cü ilin ən böyük gənclik festivalında

# AYIN FƏALİYYƏTİ

Dekabr ayının 24-də Bakıda gənclər üçün 2023-cü ilin ən böyük tədbiri - "Gənclərin həmrəylik festivalı" keçirilib. Bakı kristal zalda baş tutan tədbirin mühafizəsi "GESCO" ASC əməkdaşları tərəfindən təmin olunub. Mühafizəçilərimiz tərəfindən giriş-çıxışa nəzarət, həmçinin səhnə ərazisi və VIP zonanın mühafizəsi təmin olunub.

# STATİSTİKA

Dekabr ayı ərzində mühafizəçilər tərəfindən aşağıdakı halların qarşısı alınmışdır.






# AYIN XƏBƏRLƏRİ



# XƏBƏRLƏR

"GESCO" ASC 17 dekabr tarixində Azərbaycan Savat Federasiyasının ölkə üzrə keçirilən çempionatında iştirak edib. Çempionat zamanı göstərdiyi təşəbbüs və dəstəyə görə "GESCO" şirkətinin əməkdaşları Federasiya tərəfindən fəxri diplomla təltif olunub.

Yarışın mühafizəsinin təmin olunmasında iştirak etməkdə məqsəd Azərbaycan idmanının inkişafına öz töhfəmizi verməkdir.




**İdman üzrə Azərbaycan çempionatında**

# İlin yekununa dair hesabat tədbiri



Dekabrın 20-də "GESCO" mühafizə şirkəti tərəfindən 2023-cü ilin yekununa həsr olunmuş hesabat tədbiri keçirilib. Tədbirdə il ərzində həyata keçirilən yeni layihələr, idarəetmənin təkmilləşdirilməsi məqsədilə görülən işlər, qazanılan uğur və nailiyyətlərə dair müzakirələr aparılıb. Rəsmi və praktik hissədən ibarət görüşdə hesabatlar dinlənildikdən sonra iştirakçılar arasında əməkdaşlığa təşviq edən oyunlar keçirilib. Həmçinin sonda 2023-cü ildə öz peşəkar fəaliyyətləri ilə fərqlənən əməkdaşlar fəxri diplom və təşəkkürnamə ilə təltif olunub.

Qeyd edək ki, hər yarımilin tamamında keçirilən bu tədbirlərin məqsədi əməkdaşlar arasında kommunikasiyanın gücləndirilməsi, həmçinin fəaliyyətlər üzərində refleksiya aparmaq və hesabatlılığı təmin etməkdir.



# MÜHAFİZƏYƏ DAİR

# Kütləvi tədbirlərin mühafizəsi

Kütləvi tədbirlərin mühafizəsi zamanı qapı və giriş-çıxış nəzarəti tədbirin təhlükəsizliyini və düzgün istiqamətlənməni təmin edir. Giriş məntəqələrində mühafizə tədbirlərinin düzgün planlaşdırılması və icrası izdihamı idarə etmək, icazəsiz girişin qarşısını almaq və hər hansı potensial təhlükə təhdidlərinə qarşı effektiv cavab vermək üçün vacibdir. Bu zaman mühafizənin düzgün təşkili üçün nəzərə alınmalı bəzi əsas məqamlar bunlardır:

**Riskin qiymətləndirilməsi**
Təhlükə mənbəyi ola biləcək mövcud boşluqları müəyyən etmək üçün tədbirin keçirildiyi məkanda hərtərəfli risk qiymətləndirilməsi aparılmalıdır. Bu halda tədbirin növü, gözlənilən iştirakçı sayı, yeri və tarixi mühafizə aspektindən təhlil olunmalıdır.

**Giriş nəzarəti**
İştirakçı axınını düzgün tənzimləmək üçün effektiv giriş nəzarəti tədbirləri həyata keçirmək lazımdır. İdarə oluna bilən giriş nöqtələri yaratmaq üçün müvafiq maneə, turniket və ya digər fiziki strukturlardan istifadə olunur.

**Giriş yoxlanışı**
Bütün iştirakçılardan, əməkdaş və satıcılardan müvafiq şəxsiyyət vəsiqələri tələb olunmalıdır (Tədbir zamanı bu tələb qoyulduğu halda). Bilet və digər müvafiq təsdiqləyici sənədlərin həqiqiliyinin hərtərəfli yoxlanılması təmin olunmalıdır. Onların yoxlanılması üçün barkod skanerləri kimi texnologiyalardan istifadə olunur.

**Baqaj yoxlanışı**
Qadağan olunmuş əşyaların içəriyə daxil olmasının qarşısını almaq üçün baqajın yoxlanılması prosedurlarını həyata keçirmək vacibdir. Bu proses metal detektorlar, rentgen aparatları və ya çanta yoxlamaları vasitəsilə aparılır. Həmçinin, yaxşı olar ki, elan və məlumat lövhələri vasitəsilə əşyalarla bağlı nəzərdə tutulan məhdudiyyətlər açıq şəkildə bildirilsin.

**Kadr hazırlığı**
Mühafizə əməkdaşları izdihamın effektiv idarə edilməsi, münaqişələrin həlli və fövqəladə hallara cavab tədbirləri ilə bağlı hazırlıqlı və məlumatlı olmalıdırlar. Bu əməkdaşların ərazinin planı, fövqəladə hal çıxışları və evakuasiya prosedurları ilə tanış olmaları zəruridir.

**Rabitə sistemi**

Giriş nəzarətçiləri, mühafizə əməkdaşları və tədbir təşkilatçıları arasında aydın rabitə kanalları mövcud olmalıdır. Real vaxt rejimində məlumat mübadiləsini asanlaşdırmaq üçün ikitərəfli radio rabitə vasitələrindən istifadə edilir.

**Fövqəladə hallara hazırlıq**

Bu cür kütləvi tədbirlərdə fövqəladə hallara cavab planları hazırlanmalı və nəzarətçilər, mühafizə əməkdaşları bu barədə məlumatlanmalıdır. Bu zaman, evakuasiya prosedurları da daxil olmaqla, müxtəlif ssenarilərə hazırlaşmaq üçün təlim və simulyasiyaların keçirilməsi əhəmiyyətli rol oynayır.

**Hüquq-mühafizə orqanları ilə koordinasiya**

Tədbirin ümumi təhlükəsizliyini artırmaq üçün yerli hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etmək zəruridir. Tədbir, potensial risklər və mühafizə planı haqqında məlumatlar müvafiq orqanlarla paylaşılır.

**Nəzarət və monitorinq**

Kütlənin davranışını izləmək və potensial təhdidləri müəyyən etmək üçün giriş nöqtələrində kamera müşahidə sistemlərinin (CCTV kameraları) quraşdırılması məqsəduyğundur. Hadisələrə operativ reaksiya vermək üçün nəzarət sistemlərini mərkəzi monitorinq bölməsi ilə birləşdirmək olar.

**Müştəri xidmətləri**

Mühafizə standartlarını qoruyarkən müştərilərə düzgün ünsiyyətdə olmaq və məlumatlı xidmət göstərmək üçün əməkdaşların təlimatlandırılması zəruridir. Qarışıqlığı minimuma endirmək və əməkdaşlığı gücləndirmək üçün tədbirin siyasət və prosedurlarını əməkdaşlara mümkün qədər aydın şəkildə çatdırmaq lazımdır.

Kütləvi tədbirlərin mühafizəsinin bu aspektlərini həll etməklə tədbir təşkilatçıları potensial riskləri azalda, təhlükəsiz və xoş bir mühit yaratmağa töhfə verə bilərlər.

GESCO ASC

# BİZİMLƏ ƏLAQƏ

+994 12 310 05 77
+994 55 207 00 40

office@gesco.az

www.gesco.az

Bakı, Ziya Bünyadov prospekti, 1965-ci məhəllə, Çinar Park Biznes Mərkəzi